ᲡᲐᲥᲐᲠᲗᲕᲔᲚᲝᲡ ᲞᲝᲚᲘᲢᲘᲙᲘᲡ ᲘᲜᲡᲢᲘᲢᲣᲢᲘ
GEORGIAN INSTITUTE OF POLITICS

Analitik Rəy

Dekabr 2023 / Buraxılış #53

# Ukrayna Müharibəsi Dövründə İranın Azərbaycana Qarşı Xarici Siyasəti: Qətiyyətli Geosiyasət, Acizlik yaxud Kimlik?

**Rövşən Məmmədli**[1]

## İCMAL

İran və Azərbaycan arasında İkinci Qarabağ müharibəsinin ardınca yaranan, hazırda da davam edən gərgin münasibətlər Rusiyanın Ukraynanı işğalı ilə kritik hədlərə çatmışdır. Zəngəzur dəhlizinin implementasiyası ilə əlaqədar qeyri-müəyyənliklər, düşmən dövlətlərlə əlaqələrə dair qarşılıqlı ittihamlar mübahisə doğuran əsas məsələlər sırasındadır.

Əvvəllər də İran-Azərbaycan münasibətlərinin o qədər də qənaətbəxş olmadığı dövrlər olsa da, hazırkı gərginlik yaxın tarixdə görülməmiş dərəcədədir. Hər iki tərəf hazırkı vəziyyətdə özünə qarşı təhlükəsizlik təhdidləri görür, bu isə vəziyyətin hərbi nəticələrə gətirib çıxaracaq qədər kəskinləşməsi, yaxud regionu daha da destabilləşdirməsi ilə bağlı qorxulara yol açır. Rusiya-İran arasında münasibətlərin istiləşməsi, İsrail və Azərbaycanın İrana qarşı ortaq etimadsızlıq üzərində qurulmuş əməkdaşlığının böyüməsi kimi xarici faktorlar vəziyyəti daha da kəskinləşdirə bilər. Bu siyasi arayışın məqsədi Rusiyanın Ukraynaya qarşı təcavüzü və digər yeni geosiyasi faktorlar kontekstində İranın Azərbaycana qarşı siyasətini təhlil etməkdir.

[1] Rövşən Məmmədli Bakı əsaslı müstəqil tədqiqatçı və siyasi analitikdir. Onun əsas tədqiqat sahələrinə İran-Azərbaycan münasibətləri, Qarabağ münaqişəsi, Azərbaycan və Ermənistan arasındakı sülh prosesi daxildir. O, Mykolas Romeris Universitetində Beynəlxalq Siyasət Araşdırmaları üzrə magistr dərəcəsinə malikdir və San Dieqo Universitetində Münaqişələrin Transformasiyası və Mediasiyası üzrə sertifikat tələbəsidir. Onun "İran və İkinci Qarabağ müharibəsi" adlı elmi məqaləsi Uiley Onlayn Kitabxanası tərəfindən nəşr olunub.

Məqalə Cənubi Qafqazda regional təhlükəsizliyi və sabitliyi təmin etmək üçün effektiv strategiyaların işlənib hazırlanmasında maraqlı olan aktorları, onlara kömək edə biləcək faydalı məlumatlarla təmin etmək hədəfi ilə hazırda davam edən böhrana təsir edən müxtəlif amilləri nəzərdən keçirir.

**AÇAR SÖZLƏR:** Azərbaycan, Qarabağ müharibəsi, İran, Ukrayna , Rusiya, İsrail, Zəngəzur dəhlizi, Ermənistan

## Giriş

İran və Azərbaycan güclü mədəni və tarixi əlaqələrə sahibdir. Buna baxmayaraq, SSRİ-nin süqutundan sonra İran Azərbaycanı Rusiyanın təsir dairəsində olan, spesifik ictimai-siyasi dinamikaları olan bir ölkə kimi görərək Azərbaycana qarşı nisbətən passiv siyasət yürütmüşdür. Nəticə etibarıyla Tehran Bakı ilə münasibətlərində dövlətlər arası yanaşmanı seçərək Azərbaycandakı şiə aktivistləri dəstəkləməkdən imtina etmişdir. Bunun müqabilində Bakı İranın böyük azərbaycanlı azlığını müdafiə etməyə çalışan keçmiş prezident Elçibəyin pantürkist ritorikasından əl çəkmişdir.

İkitərəfli münasibətlərə bu yanaşma İranın özünümüdafiə xarekterli xarici siyasət oriyentasiyasını nümayiş etdirir ki, bu kontekstdə onun əsas qayğıları regional hadisələrin fonunda milli təhlükəsizliyin və daxili siyasi sabitliyin qorunmasıdır. Regiondan Qərbi çıxdaş etmə siyasətinin bir hissəsi kimi, Tehran Dağlıq Qarabağ konfliktinin tənzimlənməsində Rusiyanın dominant rolunu qəbul etmişdir. Eyni zamanda, Bakı ilə mütəmadi yaşanan gərginliklərə baxmayaraq, vəziyyətin kəskinləşməsinin qarşısını almağı, iqtisadi səmərə əldə etməyi və İraq və Əfqanıstan kimi daha qeyri-sabit qonşuları ilə müqayisədə öz şimal sərhədlərini nisbətən sabit saxlamağı bacarmışdır. Lakin 2020-ci ilin payızında Azərbaycanın Ermənistan üzərində qələbəsindən sonra iki dövlət arasında gərginlik artmış və bununla da region üçün yeni təhlükəsizlik riski yaranmışdır. Bu böhran, son 3 ildə bir-birinə cavab tədbiri xarakterli hərbi təlimlər, diplomatların qovulması, Azərbaycanın Tehrandakı səfirliyinə ölümcül hücum və İran casusları olduğu iddia edilən şəxslərin həbsi ilə yadda qalıb.

Bu siyasi arayış Tehran və Bakı arasında hökm sürən gərginliyi araşdırır, İranın modus operandisinə xüsusi diqqət yetirir, eyni zamanda xarici amillərin rolunu nəzərə alır. Bu məqalə eyni zamanda Tehranın Bakıya və regiondakı risklərə münasibətdə xarici siyasətinin üzləşdiyi

əsas maneələri müəyyənləşdirmək və ikili münasibətlərəki əsas çətinliklərə qarşı potensial strategiyalar təklif etmək məqsədi ilə bu siyasətin uğurlarını və məhdudiyyətlərini araşdıracaq.

## İkinci Qarabağ Müharibəsi:Tehran və Bakı üçün Qırılma Anı

Tehranın regional yanaşmasındakı sonuncu dəyişiklər onun Cənubi Qafqazda potensial olaraq təsirini itirməsi ilə bağlı artan narahatlığından irəli gəlir. İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanla yanaşı Rusiya, Türkiyə və İsrail qaliblər arasında yer alsa da, İran uduzanlar sırasında oldu. O, Qərb güclərini Cənubi Qafqazdan kənarlaşdırmaq məqsədilə Rusiya, Türkiyə, İran, Azərbaycan, Ermənistan və Gürcüstan arasında regional əməkdaşlığın “3+3” formatını təklif etsə də, bu təklif məhdud diqqət çəkdi. Tehran Qarabağ bölgəsi ilə həmsərhəd olan yeganə qonşu olmasına baxmayaraq, Azərbaycanın nəzarətinə qaytarılan ərazilərdə infrastruktur layihələrində iştirak etmək üçün dəvət edilmədi.

İran və Azərbaycan arasındakı hazırkı gərginlikləri başa düşmək üçün Rusiya və İranın regional maraqları arasındakı fərqləri nəzərdən keçirmək xüsusilə əhəmiyyətlidir. Birincisi, Kreml Azərbaycana Ermənistanın Syünik vilayəti üzərindən Naxçıvan eksklavına, oradan da Türkiyəyə maneəsiz gediş imkanı yaradacaq Zəngəzur dəhlizi təşəbbüsünü üstüörtülü şəkildə dəstəkləsə də, Tehran bu layihəni ciddi təhlükəsizlik təhdidi kimi qəbul edir. Bakı və Yerevan arasında Zəngəzur dəhlizi ilə bağlı anlaşmazlıq 10 noyabr 2020-ci ildə imzalanan üçtərəfli bəyanatın 9-cu maddəsinin fərqli şərhlərindən qaynaqlanır. Ermənistan iddia edir ki, “dəhliz” termini yalnız Dağlıq Qarabağ bölgəsinin Laçın dəhlizi vasitəsilə Ermənistanla əlaqəsinin olmasını müəyyən edir, Azərbaycan isə Zəngəzur dəhlizinin də ekstraterritorial statusa malik olmasında təkid edir. Sünik vilayəti Ermənistan və İranı əlaqələndirdiyindən, Tehran dəhlizin yaranması ilə Yerevanla nəqliyyat xəttlərinin pozulmasından və Cənubi Qafqazda geosiyasi təsirinin azala biləcəyindən qorxur.

İkincisi, İran Qafqazda artan türk ambisiyasından narahatlıq duyur. Qarabağdakı atəşkəsi monitorinq etmək üçün Ankara və Moskva tərəfindən yaradılmış ortaq mərkəz, Rusiya və Türkiyənin Zəngəzur dəhlizi vasitəsilə Azərbaycan üzərindən əlaqələnməsi ehtimalı, eyni zamanda Azərbaycan və Türkiyənin birgə həyata keçirdiyi bir neçə hərbi təlimlə bağlı Rusiyanın səssizliyi İranın narahatlığını daha da artırmışdır. Üçüncüsü, Rusiya, İranın məsələ ilə bağlı baxış bucağının tamamilə əksinə olaraq, Azərbaycanın İsraillə güclənən əməkdaşlığını özünə təhlükə təhdid olaraq görmür. Tehran İsrailin Cənubi Qafqazdakı fəaliyyətini, İranın

Suriya, Livan və Qəzza boyu İsrailin sərhədlərində mövcudluğunu möhkəmləndirməsini əks etdirən bir formada, İranı mühasirəyə almaq səylərinin bir hissəsi kimi görür. Kreml isə Təl-Əvivlə mehriban münasibətlər saxlayır və Cənubi Qafqazda Suriyadakı yanaşmasına bənzər mövqe tutur ki, bu da Tehranın maraqlarına cavab vermir.

2021-ci ilin oktyabrında keçirilən "Xeybər Fatehləri" hərbi təlimləri İranın İkinci Qarabağ Müharibəsinin yaratdığı geosiyasi dəyişikliklərdən narahatlığının ilkin açıq təzahürü idi. Azərbaycan sərhədinə yaxınlıqda öz hərbi gücünü göstərməklə və müsəlmanlar və yəhudilər arasında baş verən tarixi Xeybər döyüşünə istinad etməklə Tehran açıq şəkildə İsrailin onun şimal sərhədlərində güclənməsindən narazılığını ifadə etdi. Təlimlərin zamanlaması İranın həm hərbi, həm də sivil kanallar vasitəsilə bütün bu məsələlərdən narazılığını ifadə etməsilə üst-üstə düşdü. Tehranın mövqeyi Ermənistanın Sünik vilayətində təhlükəsizlik vəziyyətini birbaşa dəyişməsə də, Ermənistanın Bakının Zəngəzur dəhlizi ilə bağlı təzyiqlərinə tab gətirə bilməsinə töhfə verdi. Buna baxmayaraq, İranın Cənubi Qafqazdakı maraqlarına olan təhdidlərə qarşı Rusiyanı əməkdaşlığa cəlb etmək cəhdləri uğursuzluğa düçar oldu. Xatırlayaq ki, Rusiyanın xarici işlər naziri Sergey Lavrov iranlı həmkarı Əmir Abdullahiyanla görüşündə hərbi manevrləri qəbul etmədiklərini bildirmişdi.( TRT Russian 2021)

## Rusiyanın Ukraynanı İşğalı və bunun Cənubi Qafqaz üçün Əhəmiyyəti

Rusiyanın diqqətini Ukraynaya verməsi Azərbaycanın Ermənistan üzərindəki öz hərbi qələbəsini möhkəmlətməsinə kömək etməklə yanaşı Tehranın təhlükəsizlik aparatını daha ayıq-sayıq olmağa sövq etmişdir. Bu reaksiya ən əsası Cənubi Qafqazdakı mövcud güc boşluğundan irəli gəlir. Rusiyanın azalan təsiri, Qərb sanksiyalarına görə tranzit və ticarət üçün Ankara və Bakıdan artan asılılığı ilə birlikdə İranın təhlükəsizliklə bağlı narahatlıqlarını daha da dərinləşdirmişdir. Bununla belə, Moskvanın Tehrandan asılılığının artması Tehranın manevr imkanlarını artırmış və öz maraqlarını müdafiə etmək baxımından əlini gücləndirmişdir. Məsələn, 2022-ci ilin sentyabrında, Zəngəzur dəhlizini açmaqdan imtina etdiyinə görə Azərbaycan Ermənistana hücum etdikdə İran öz sərt addımlarıyla tez cavab verdi. O, Sünik bölgəsində konsolluq açdı və Ermənistanla quru sərhədinin təhlükəsizliyi üçün Azərbaycanla qarşılaşmağa hazır olduğunu göstərən, Araz çayının digər tərəfinə keçməyi də simulyasiya edən genişmiqyaslı "hərb oyunları" keçirtdi. İranın Rusiya üzərində təsir imkanlarının artması nəticəsində, əvvəlki ildən fərqli olaraq, Rusiya bu təlimlərə qarşı çıxmadı.

İranın bu daha “əzələli” yanaşması, Aİ missiyasının Azərbaycan-Ermənistan sərhədinə gəlişi ilə birlikdə, Yerevanın Azərbaycanın ambisiyalarına qarşı dura bilməsi baxımından mühüm rol oynadı. Dəhliz ideyası, 2022-ci ilin sonunda Azərbaycanın Laçın dəhlizində nəzarət-buraxılış məntəqəsi qurması, beləliklə Laçın dəhlizinə effektiv nəzarət etməyə başlaması və ərazidə sərbəst hərəkəti məhdudlaşdırması ilə daha da aktuallığını itirdi. İranın regionda təhlükəsizlik təminatçısı kimi artan rolu onun müharibədən sonrakı mərhələdə dəyişən təhlükəsizlik anlayışını əks etdirir ki, bunun da Azərbaycan üzərində çəkindirici təsiri olmuşdur. Təsadüfi deyil ki, İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) son illərdə İranın Azərbaycanla münasibətlərində daha əsas rol oynayıb və əhəmiyyət baxımından Xarici İşlər Nazirliyini kölgədə qoyub.

İranın hərbi fəaliyyətindən fərqli olaraq, Bakıya qarşı diplomatik səyləri məhdud uğur qazanıb. Xüsusilə qeyd edək ki, 2023-cü ilin yanvar ayında İrandakı Azərbaycan səfirliyinə olan hücumdan sonra səfirlik bu ölkədə fəaliyyət göstərmir. Bundan əlavə qarşılıqlı addımların hər iki tərəfdən 4 diplomatın persona non grata elan edilməsi ilə nəticələnib. Prezident İlham Əliyev isə ölkələr arasındakı münasibətlərin “heç zaman olmadığı qədər çox aşağı səviyyədə” olduğunu qeyd etmişdir (Azərtac 2023). İran nöqteyi-nəzərindən Azərbaycanın Təl-Əvivdəki səfirliyinin açılışı diplomatik əlaqələrin daha da korlanmasına yol açıb. Tehran qorxur ki, cəsarətlənmiş Bakı İran sərhədində İsrail üçün çıxış meydançası ola bilər. Belə ki, Təl-Əviv İranın qonşuları ilə daha güclü əlaqələr qurmaq siyasətinin bir parçası olaraq Fars körfəzi, Şimali İraq, Cənubi Qafqaz və Mərkəzi Asiya kimi regionlarda öz təsirini genişləndirməyə və Tehrana qarşı Bakı ilə “ortaq cəbhə” yaratmağa çalışır (Anadolu Agentliyi 2023). Bu kontekstdə yüksək çinli İsrail rəsmilərinin “İran təhlükəsinə” xüsusi vurğu ilə Bakıya ardıcıl səfərləri (Times of Israel 2023, APA 2023, Əl-Monitor 2023) Tehranda təşviş yaratmışdır. Rəsmi Bakının diskursunda güclənən irredentist meyllər də İran üçün narahatlıq doğuran elementlərdir. İranda əhəmiyyətli etnik azərbaycanlı azlığın olduğunu nəzərə alsaq, Bakının mövqeyinin İranın daxili siyasi mühitinə müəyyən təsirləri var və bu, İslam Respublikasının sabitliyinə potensial təsir göstərir. Bu kontekstdə Prezident Əliyev “Bakının “Azərbaycan dövlətindən ayrı düşənlərin, azərbaycançılıq ideyalarına sadiq olmalarını, öz tarixi Vətənləri ilə əlaqələrinin heç vaxt itməməsini” təmin etmək üçün səylərinə davam edəcəyini” bəyan etmiş, yerli media isə onları “Cənubi Azərbaycanlılar” adlandırmışdır (Prezident.az 2022). Bu fikirin amerikalı şahin ekspertlər və İsrail Knessetindən dəstək toplaması (i24 News 2023) vəziyyəti daha da kompleksləşdirir. Eyni zamanda Tehranla gərginləşən münasibətlər Bakının Qərbin gözündə “İran dəstəkli islam ekstremizmi”nə qarşı dayaq nöqtəsi kimi öz cəlbediciliyini gücləndirməsinə imkan verir. Bu gözlənilən təhlükə ölkə daxilində avtoritar siyasətə və insan hüquqlarının pozulmasına haqq qazandırır. Belə ki, Azərbaycan hakimiyyəti

son üç ildə dini icmaları daha sərt dövlət nəzarəti və kontroluna məruz qoyub və bu dini azadlıqlara qoyulan məhdudiyyətlərin artması və şiə dindarların tez-tez həbs edilməsi ilə nəticələnib (ABŞ Dövlət Departamenti 2023).

## İqtisadi Maraqlar Deeskalasiya Faktoru Kimi

Tehranın iqtisadi prioritetlərinə gəldikdə isə, nəqliyyat əlaqələri, xüsusilə Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi (INSTC) mühüm rol oynayır. 2000-ci ildə əsası qoyulmuş INSTC Qərbin İran və Rusiya üçün sanksiyalarına strateji cavab mahiyyəti daşıyır. Təxminən 25 milyard dollarlıq ümumi investisiya öhdəliyi ilə bu regional şəbəkənin inkişafı Hindistan, İran, Azərbaycan, Rusiya və Qərbi birləşdirən ticarət yollarının yaradılmasına xidmət edir Hökumət nümayəndələri arasında son müzakirələr Astara-Rəşt-Qəzvin dəmir yolunun tamamlanması yönündə səylərin artırılmasına yönəlib. Bu dəmir yolu şəbəkəsi Rusiya, Azərbaycan və İranın mövcud dəmir yolu şəbəkələrini daha geniş INSTC çərçivəsinə birləşdirəcək. Moskva və Tehran Rusiyadan Fars körfəzi boyunca limanlara qədər uzanan dəmir yolunun tikintisi üzrə əməkdaşlıq edir. Bu strateji əməkdaşlıq Qərbin sanksiyalarının nəticələri ilə mübarizə aparan hər iki ölkə üçün xüsusi əhəmiyyətə malik Azərbaycandan keçən nəqliyyat xəttinin yaranmasına istiqamətlənib. Rusiya və İran Bakı ilə dəhlizin inkişafı ilə bağlı sazişin rəsmiləşdirilməsi prosesindədir. Tehran Azərbaycanın sazişə bağlılığını yenidən dəyərləndirməsi və onun əvəzində, Rusiya və İranı yan keçməklə Avropa və Asiyanı bağlayacaq olan şərq-qərb ticarət marşurutu – Orta Dəhlizdə aktivliyini artırması ehtimalına qarşı ehtiyatlı davranır. Tehran eyni zamanda Cənubi Araz dəhlizinin aktivləşdirilməsinə çalışır, habelə İran, Türkmənistan və Azərbaycan arasında üçtərəfli qaz mübadiləsi sazişində iştirakını intensivləşdirir. Cənubi Araz dəhlizinin İran ərazisindən keçməklə Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan arasında əlaqəni gücləndirəcəyi gözlənilir. İranın qaz tranzit imkanlarının genişləndirilməsi ikili məqsədə - Azərbaycanın artan daxili enerji ehtiyaclarını ödəməyə və Avropa bazarını qazla təmin etməyə xidmət edir. Bu baxımdan Tehran qonşusunu İsrailə daha da yaxınlaşdırmamaq və bu mühüm iqtisadi təşəbbüsləri qorumaq üçün Bakı ilə gərginliyi azaltmaqda maraqlıdır. İranın Azərbaycanla barışıq üçün ən axırıncı təşəbbüsləri, məsələn, İranın Xarici İşlər naziri Əmir Abdullahiyanın azərbaycanlı həmkarı ilə telefon danışığı zamanı ikitərəfli əlaqələrin genişləndirilməsi və səfirliyin təhlükəsizliyinin yaxşılaşdırılmasına dair öhdəliyin müzakirəsi də bu kontekstdə şərh edilməlidir.

# Nəticə

İranın Bakıya qarşı ümumi strateji yanaşması tarixi münasibətlərin, geosiyasi dəyişiklərin və iqtisadi imperativlərin qarşılıqlı əlaqəsindən formalaşmış, regional tarazlığın qorunması ətrafında cərəyan etmişdir. Onun hazırkı agendası Azərbaycanla gərginliyi artırmamaq və ya hər hansı formada hərbi qarşıdurmaya getməməkdir. Bununla belə, mövcud vəziyyət Tehranın strateji mülahizələrini və prioritetlərini yenidən qiymətləndirdiyini göstərir. Əvvəllər Azərbaycanla münasibətlər xarici siyasət əhəmiyyətli bir məsələ idisə, indi İslam Respublikası üçün mühüm milli təhlükəsizlik qayğılarından birinə çevrilib. İranın Cənubi Qafqaz siyasətində Yaxın Şərq paradiqmasını tətbiqetmə potensialı Bakı üçün xüsusi narahatlıq doğurur. Bu baş verərsə, Tehranın regional siyasətinin konturları İran İnqilabı Keşikçiləri Korpusu tərəfindən cızılacaq və bu, İranın Bakıya qarşı həm ənənəvi, həm də qeyri-ənənəvi çəkindirmə imkanlarını genişlətməsinə gətirib çıxaracaq. Rusiyadan fərqli olaraq, İran və Cənubi Qafqazın digər əsas regional aktorları arasında əhəmiyyətli asimmetrik güc bərabərsizliyinin olmaması Tehranın strateji tarazlıq baxımından artan təhlükə ilə xarakterizə olunan qüdrətli bir qüvvəyə çevrilməyə hazır olduğunu göstərir. Nəticə etibarı ilə, İranın Azərbaycanla gələcəkdə də yaşanacaq gərginliklərdə iddialı davranmağa davam etmə ehtimalı yüksəkdir. Onların ideoloji oriyentasiyalarında mühüm struktural maneələrin olduğunu qəbul etdiyimizdə Tehran və Bakı arasında sıx tərəfdaşlığın qısa müddətdə mümkünsüz olduğu aydın olur. Bununla belə, müharibədən əvvəlki dövrü səciyyələndirən nisbətən səmimi münasibətlər onu göstərir ki, yeni modus vivendi və mehriban qonşuluq münasibətlərinin inkişaf etdirilməsi üçün potensial mövcuddur. Hazırkı çətin vəziyyət iki xalqın kimliyindəki fundamental fərqlərdən deyil, ilk növbədə, dəyişən geosiyasi mənzərədən irəli gəlir. Səfirliklərin yenidən açılması bu baxımdan Bakı-Tehran münasibətlərindəki gərginliyi azaltmaq potensialına malikdir. Bundan əlavə, ikitərəfli iqtisadi maraqlar münasibətlərə müsbət təsir göstərə bilər. Bu çoxtərəfli dinamikaların fonunda regional sabitlik üçün effektiv strategiyalar İranın narahatlıqlarını, Azərbaycanın maraqlarını və digər aktorların rollarını nəzərə alan nüanslı yanaşma tələb edir. Effektiv deeskalasiyaya nail olmaq üçün hər iki tərəfin qarşılıqlı təminatlar verməsi və inam yaratması lazımdır. Diplomatik dialoqda iştirak etmək, iqtisadi əməkdaşlığı böyütmək, qarşılıqlı şəkildə təhdidləri aradan qaldırmağa çalışmaq gərginliyin azaldılması və təhükəsiz bir Cənubi Qafqazın təşviqi istiqamətində mühüm addımlardır.

# İstinadlar


Al-Monitor. 2023. *In Azerbaijan, Israel's defense chief discusses Iran, security cooperation*. 14 July. Accessed on July 24. Available at: https://www.al-monitor.com/originals/2023/07/azerbaijan-israels-defense-chief-discusses-iran-security-cooperation

Anadolu Agency. 2023. *Iran says 'won't be indifferent' to Israel's 'united front' with Azerbaijan*. 31 March. Accessed on July 24, 2023. Available at: https://www.aa.com.tr/en/middle-east/iran-says-wont-be-indifferent-to-israels-united-front-with-azerbaijan/2860368

APA. 2023. *Israel's Minister of Intelligence: Iran is a threat to the Middle East and other countries as a whole*. 11 March. Accessed on July 24. Available at: https://apa.az/en/social/israels-minister-of-intelligence-iran-is-a-threat-to-the-middle-east-and-other-countries-as-a-whole-398458

Azertag. 2023. *President: Everybody in Iran, all segments of the establishment should finally understand that language of threats and terror will not work with Azerbaijan*. 3 May. Accessed on August 17. Available at: https://azertag.az/en/xeber/President_Everybody_in_Iran_all_segments_of_the_establishment_should_finally_understand_that_language_of_threats_and_terror_will_not_work_with_Azerbaijan-2599883

Eurasianet. 2022. *Armenia, Azerbaijan agree to EU mission on border*. 7 October. Accessed on July 24, 2023. Available at: https://eurasianet.org/armenia-azerbaijan-agree-to-eu-mission-on-border

i24 News. 2023. *Israeli lawmakers urge FM Cohen to support Azeri minority in Iran*. 28 April. Accessed on July 24, 2023. Available at: https://www.i24news.tv/en/news/middle-east/iran-eastern-states/1682626108-israeli-lawmakers-urge-fm-cohen-to-support-azeri-minority-in-iran

Jafarli, S. 2022. A New Direction in Azerbaijan's Foreign Policy: Irredentism. *Baku Research Institute*, 28 November. Accessed on July 24, 2023. Available at: https://bakuresearchinstitute.org/en/a-new-direction-in-azerbaijans-foreign-policy-irredentism/

President.az. 2022. *Speech by Ilham Aliyev at the 9th Summit of Organization of Turkic States*. 11 November. Accessed on August 15. Availaible at: https://president.az/en/articles/view/57856

The Times of Israel. 2023. *FM Cohen meets Azerbaijani president to talk joint security challenges*. 19 April. Accessed on July 24, 2023. Available at: https://www.timesofisrael.com/fm-cohen-meets-azerbaijani-president-to-talk-joint-security-challenges/

TRT Russian. 2021. Дипломатия жалоб: зачем Иран втягивает Россию в авантюру на Кавказе (Diplomacy of Complaints: Why Iran is dragging Russia into an adventure in the Caucasus). Available at: https://www.trtrussian.com/magazine/diplomatiya-zhalob-zachem-iran-vtyagivaet-rossiyu-v-avantyuru-na-kavkaze-6792513

US Department of State. 2023. *2022 Report on International Religious Freedom: Azerbaijan*. 15 May. Accessed on July 24, 2023. Available at: https://www.state.gov/wp-content/uploads/2023/05/441219-AZERBAIJAN-2022-INTERNATIONAL-RELIGIOUS-FREEDOM-REPORT.pdf

Gürcüstan Siyasət İnstitutu (GİP) Tiflisdə yerləşən qeyri-kommersiya, neytral, tədqiqat və təhlil təşkilatıdır. GİP demokratik müəssisələrin təşkilati dayaqlarını gücləndirmək və Gürcüstanda siyasət araşdırmaları və təbliğat vasitəsilə yaxşı idarəetmə və inkişafı təşviq etmək üçün çalışır.

Bu nəşr Henrix Böl Stiftung-un Tiflis ofisi – Cənubi Qafqaz regionu ilə əməkdaşlıq çərçivəsində hazırlanmışdır. Bu nəşrin məzmununa yalnız müəllif cavabdehlik daşıyır və heç bir şəkildə Henrix Böl Stiftung Tiflis Ofisinin – Cənubi Qafqaz Regionu və Gürcüstan Siyasət İnstitutunun fikirlərini əks etdirmir.

BU SƏNƏDƏ NECƏ İSTİNAD ETMƏK OLAR:

Rövşən Məmmədli, "*Ukrayna Müharibəsi Dövründə İranın Azərbaycana Qarşı Xarici Siyasəti: Qətiyyətli Geosiyasət, Acizlik yaxud Kimlik?*", Analitik Rəy No.53, Gürcüstan Siyasət İnstitutu, Dekabr 2023.

© Gürcüstan Siyasət İnstitutu, 2023
Aleksandr Puşkin küç. 13, 0107 Tiflis, Gürcüstan
Tel: +995 599 99 02 12
E-poçt: info@gip.ge
Əlavə məlumat üçün müraciət edin
www.gip.ge